# "ÖZÜNÜDƏRK" VƏ "MİLLİ ÖZÜNÜDƏRK" ANLAYIŞLARININ MAHİYYƏTİ



**Vidadi Xəlilov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun baş elmi məsləhətçisi,*
*pedaqoji elmlər doktoru, professor, Əməkdar müəllim*
*e-mail: konulmikayilova@rambler.ru*
*https://doi.org/10.30546/2706-7858.2025.3.1001*

İrqindən, millətindən asılı olmayaraq hər kəs Qadir Allahın bəxş etdiyi ömrü yaşayır. Ona görə də elə yaşamalısan ki, həm sağlığında, həm də əbədiyyətə – ruh dünyasına qovuşandan sonra belə sözün-söhbətin, niyyətin əməllərinin əks-sədası ilə dəyərləndirilsin. Bu isə insanın bütün həyatı boyu özünüdərk etməsi sayəsində mümkündür. Özünüdərk olmadan milli özünüdərkin olması da mümkün deyil. Belə ki, milli özünüdərkin əsas əlamətləri özünüdərklə sıx bağlıdır. Məhz belə bir mövqeyin nəticəsidir ki, özünüdərk çox mühüm əxlaqi anlayış, əxlaqi kateqoriya kimi tarixi inkişafın müxtəlif mərhələlərində, o cümlədən keçən əsrin 70-ci illərində də respublikamızda görkəmli filosof, psixoloq, pedaqoq alimlərin diqqətini cəlb etmiş, yeri gəldikcə öz əsərlərində problemlə bağlı əsas mahiyyəti, başlıca istiqamətləri nəzərə çatdırmışlar. Akademik Ziyəddin Göyüşovun qələmə aldığı və 1978-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən çap edildiyi "Daxilə pəncərə (Özünüdərketmə)" əsəri də bu qəbildəndir. Əsərin "Müəllifdən" hissəsində söz-sənət, mənəviyyat mülkünün sultanı, dahi Nizaminin hikmət incilərindən nümunə aşağıdakı misralarla təqdim edilir:

*Özündən hər kim ki, deyil xəbərdar,*
*Bir qapıdan girər, birindən çıxar.*

Məhz bundan sonra müəllif problemlə bağlı mülahizələrini olub keçmişlərə, tarixi faktlara istinad etməklə aşağıdakı kimi nəzərə çatdırır: "Hələ Qədim Yunanıstanın Delfi məbədinin giriş qapısında "özünü dərk et! Onda allahları da, bütün kainatı da dərk etmiş olarsan" sözləri yazılmışdır. Bir sıra məlumatlara görə, qədim yunanlılar da bu fikri qədim Şərq xalqlarının fəlsəfəsindən əxz etmişlər. Bir neçə min il bundan əvvəl söylənilmiş bu aforizmin əsas hikməti bir tərəfdən ondan ibarətdir ki, insanla kainat bir tamlıq təşkil edir, insanın özünüdərk etməsi onun kainatı dərk etməsi ilə bilavasitə əlaqədardır. Başqa sözlə, insanın özünüdərk etməsi onun dünyanı dərk etməsinin mühüm tərkib hissəsidir. Digər tərəfdən də əsrlərin dərinliyindən gələn bu sözlər bir daha təsdiq edir ki, qərinələr dolanıb zamanlar keçsə də, özünüdərketmə problemi heç vaxt aktuallığını itirmir" [1, s.3].

Görkəmli alimin dünyaca məşhur olan söz, sənət, elm adamlarının fikirlərinə yeri gəldikcə istinad etməsi, münasibət bildirməsi alim etikasının parlaq, üzdə olan cəhətləri kimi dəyərləndirilməlidir. Onun hələ XVII əsrin əvvəllərində yaşamış görkəmli şair və əxlaq nəzarətçisi Çarlz F.Cofridən sitat gətirməsi belə bir mövqeyin təqdirəlayiq nümunəsi kimi xarakterizə olunmalıdır: "Hər insan ömrü bir kitaba bənzəyir, insanın doğulması bu kitabın titul vərəqidir. İlk ağlaması və zığıldaması bu kitabın girişidir. İnsanın sonrakı şüurlu həyatı və davranışları bu kitabın əsas məzmunudur, cinayət və rəzalətləri buraxılmış səhvləri, peşmançılığı sonradan edilən düzəlişləri, ölümü isə nəticə və son səhifədir. Bu kitab

qalın cildlər halında və ya nazik ola bilər, son dərəcə gözəl, bər-bəzəkli cildə çəkilər və ya adi kağızda bükülə bilər, çox bahalı və ya ucuz kağızda çap oluna bilər, lakin əsl mətləb kitabın kağızında və cildində deyil, onun məzmunundadır. Kitabın məzmunu hər şeydən əvvəl, bilavasitə müəllifdən asılı olduğu kimi, insan ömrünün də əsas məzmunu xeyli dərəcədə onun özündən asılıdır" [1, s.6].

Əsrlərin dərinliyindən süzülüb gələn və hikmətnamə səhifələrini zənginləşdirən bu cür fikirlərin sayını artırmaq da olar. Lakin elə istinad etdiyimiz nümunələr belə bir qənaətə gəlməyə əsas verir ki, özünüdərk anlayışının əxlaqi kateqoriyasının əsas mahiyyətini mənimsəmədən milli özünüdərk kateqoriyası haqqında da tutarlı, ağlabatan fikir və mühakimə yürütmək mümkün deyil. Ona görə də ensiklopediyalarda, lüğət-məlumat kitablarında da özünüdərk anlayışının izahına xüsusi diqqət yetirmək zərurəti yaranır.

"Azərbaycan Sovet Ensiklopediyası"nın 1983-cü ildə nəşr olunan 7-ci cildində "özünüdərketmə" anlayışı belə izah olunur: Özünüdərketmə – insanın öz fiziki və mənəvi keyfiyyətlərini, davranış və rəftarını, hiss və düşüncələrini dərk edib qiymətləndirməsidir. Özünüdərketmə sayəsində insan özünün qabiliyyət və imkanlarını, arzu və istəklərini, ictimai mövqeyini ətraf mühit və cəmiyyət baxımından müəyyənləşdirir. İnsan özünə nəzər salmazdan, özünümüşahidədən əvvəl başqalarını, ətrafdakıları müşahidə edir, bundan sonra özünü həmin insanlarla müqayisə edib, onlarla özü arasında olan ümumi və fərqli cəhətləri müəyyənləşdirir. Bununla da "mən"lə "qeyri-mən" arasında münasibət və sərhədlər aydınlaşır.

İnsanlar qrup, kollektiv və cəmiyyət daxilində bir-birini əks etdirməklə yanaşı, başqalarının ehtiyac və tələbi xatirinə də özlərinə nəzər salmağa, fəaliyyət, rəftar, psixi vəziyyət və mövqelərini formalaşdırıb təhlil etməyə, bunları ətraflı dərk etməyə çalışırlar. Beləliklə, özünüdərketmə insanın öz rəftar və davranışını tənzim etməyə, qabiliyyət və mənəvi keyfiyyətlərini inkişaf etdirməyə imkan verir [2]. Bütün canlılardan daha canlı, yer üzünün əşrəfi, incisi, təbiətin şah əsəri, rəssamı olan insanın özünüdərketmə qabiliyyəti başlıca xüsusiyyətləri ilə bağlı izah və şərhlər heç şübhəsiz, əhatəliliyi, mükəmməlliyi ilə diqqəti cəlb edir. Həyat həqiqətlərini şüurlu surətdə dərk etmək, qarşıya çıxan maneələri tükənməz fəaliyyət enerjisi ilə aradan qaldırmaq yalnız insana məxsusdur. Əbəs yerə deməmişlər ki, insan öz mahiyyəti etibarilə təbiətin ən mükəmməl əsəri, həm də ən dəyərli rəssamı, memarı kimi qurur, yaradır. Bütün proseslər isə yalnız və yalnız özünəinam, özünüdərketmə sayəsində yüksələn xətlə davam edir. İnsan həyat və məişət üçün zəruri olan bəsit alətləri düzəltdiyi vaxtdan daima axtarış, genetik hissi ilə çalışaraq müasir elmi-texniki vasitələri icad etmiş, bununla da özünəinam hissi daha da qüvvətlənmişdir. Bütün bunlar isə, məhz özünüdərketmə sayəsində mümkün olmuşdur.

Filosof, filoloq, pedaqoq, psixoloq alimlərin cəmiyyətin müxtəlif inkişaf mərhələlərində həmin cəhətlərin əsas mahiyyətini dönə-dönə şərh etməyə çalışmaları da problemin bütün tarixi dövrlər üçün aktuallığı ilə izah edilməlidir. Təsadüfi deyildir ki, akademik Ziyəddin Göyüşov 1983-cü ildə çap etdirdiyi "Səadət düşüncəsi" əsərində də özünüdərklə sıx bağlı olan cəhətləri, başlıca keyfiyyətləri diqqətə çatdırır: ...İndi artıq qəti sübut olunmuş, sınaqdan çıxarılmış bir həqiqətdir ki, insanın həyat haqqında düşüncəsinin həqiqiliyi və ya yanlışlığı onun taleyi üzərində dərin və silinməz iz buraxır. Çünki düşüncə, fikir ən qüdrətli, ən ecazkar, yenilməz və qarşılanmaz qüvvədir. Bu qüvvətli və ecazkar qüvvəni haraya yönəltməyimizdən, necə tətbiq etməyimizdən və bundan necə istifadə etməyimizdən asılı olaraq qüvvətli və ya aciz oluruq, sakit və ya narahat həyat keçiririk, uğurlu və ya uğursuzluğa düçar oluruq. Doğru düşüncəmiz, düzgün fikrimiz bizim ən yaxın bələdçimizdir, yol göstərənimizdir. Həyatın əzablı, sərt, dolaşıq yollarında düzgün istiqamət götürmək üçün düşüncə bizə əvəzsiz bir məşəl rolunu oynayır [3, s.3].

Haqlı deyimdir, doğrudan da əgər düşüncə, fikir saf niyyətə, özünüdərkə istiqamətlənmirsə, bu, eyni zamanda özünənəzarət və özünəqiymət vermə prosesinin mahiyyət dolğunluğuna zəmin yaratmır. Görkəmli filosof alimin fikirlərinin, qənaətlərinin yəqinliyi və həyatiliyi bir də ondadır ki, problemin əsas mahiyyətindən, başlıca cəhətlərindən bəhs edərkən özündən əvvəlki deyilənlərə də qısqanclıqla yanaşmır, əksinə, onların irəli sürdüyü fikir və müddəaları daha inandırıcı, təsirli şəkildə nəzərə çatdırır. Bu mənada onun görkəmli fransız pedaqoqu Jan Jak Russonun bəşəri

mahiyyət kəsb edən fikirlərinə istinad etməsi də təbii sayılmalıdır: Heç kəs insan həyatını onun özündən yaxşı təsvir edə bilməz. İnsanın daxili vəziyyəti, onun əsl həyatı bütövlükdə yalnız onun özünə məlumdur. Lakin insan öz həyatını təsvir edərkən həyat hadisələrinin çoxunu gizlədir. Öz həyatını yazarkən özünə bəraət qazandırmağa məcbur olur, özünü olduğu kimi deyil, necə görmək istədiyi kimi təsvir edir. Ən səmimi adamlar isə ən çox dediklərində doğruçu olurlar. Susduqları və gizlətdikləri hallarda isə onlar da aldanırlar. Hətta özlərini səmimi göstərməyə cəhd edəndə də həqiqətin ancaq bir hissəsini deyirlər, o biri hissəsi haqqında susmağı lazım bilirlər... Onlar ancaq profili – üzlərinin bir tərəfini göstərirlər. İnsanlara, öz daxilinə (təbiətinə) uyğun gəlmək imkanı verin. Qoy onlar görünmək istədikləri kimi olsunlar və qoy onlar həqiqətdə olduğu kimi görünsünlər [1, s.35]. Həyati müşahidələrə əsaslanan bu deyim də həyat-mənəviyyat düsturu, aksiomatik ifadə tərzi ilə həmişə təravətli, həmişə təsirlidir. Böyük Şərq mütəfəkkiri Cəlaləddin Ruminin hələ XIII əsrdə dediyi "ya göründüyün kimi ol, ya da olduğun kimi görün" hikmət incisini xatırladır. Burada bütün həyatı boyu Vətən-yurd məhəbbəti ilə yazıb-yaratmış unudulmaz xalq şairimiz, akademik Bəxtiyar Vahabzadənin qəlblərə hakim kəsilən misralarını xatırlatmaq da yerinə düşər:

*Bizə kainatı göstərən gözlər,*
*Hələ öz-özünü görə bilməmiş.*
*Gəlin özümüzü görə bilək biz,*
*Açılsın kitabtək ürəklərimiz!*

Bəli, əxlaq-mənəviyyat aləmində özünü görmək, özünü dərk etmək böyük qabiliyyətdir. İnsanlığın dəyər göstəricisi səviyyəsində daha da çox nəzərə çarpan qabiliyyətidir. Görkəmli filosof alimlərin bu istiqamətdə pedaqoq alimlərlə qoşalaşması, eyni mövzuda tədqiqat aparmaları problemin başlıca sosial mahiyyətindən irəli gəlir.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, fəlsəfə üzrə elmlər doktoru, professor Səlahəddin Xəlilovun əsrin əvvəlində çap etdirdiyi "Mənəviyyat fəlsəfəsi" əsəri də belə bir mövqeyin təzahürü kimi dəyərləndirilməlidir. Həmin əsərdə ön sözün müəllifi akademik Ramiz Mehdiyev yazır: İnsanın bir fərd olaraq mənəvi-intellektual inkişafı ilə ictimai tərəqqi arasında ciddi qarşılıqlı əlaqə məqamları vardır. Belə ki, ayrı-ayrı insanların ümumi inkişaf səviyyəsi aşağı olduqda cəmiyyətin təkmilləşdirilməsi çox çətin olur. Digər tərəfdən də ictimai təşkilatlanmanın səviyyəsi, dövlət idarəçiliyinin optimallığı da öz növbəsində, fərdlərin öz şəxsi həyatlarını düzgün qurmaları və mənəvi-intellektual inkişafın təmin olunması üçün mühüm şərtdir. Təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev bütün dəyərlər içərisində ən böyük üstünlüyü mənəvi amilə vermişdir: Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır" [4, s.3]. Sitat kimi istinad etdiyimiz bu fikirdə də insanın özünüdərk etməsi ilə bağlı cəhətlər indi də problemliyi ilə diqqəti cəlb edir. Ümummilli lider Heydər Əliyevin "Mənəviyyatını qoruyan, yaşadan insan əbədi olacaqdır" kəlamı da öz mahiyyəti etibarilə özünüdərketmə, bunun hər kəsin timsalında inkişafına, formalaşmasına istiqamətlənmişdir. Sitatda diqqətə çatdırılan "ayrı-ayrı insanların ümumi inkişaf səviyyəsi aşağı olduqca cəmiyyətin təkmilləşməsi çox çətin olur" fikri də reallığın, həyati müşahidələrin əsasında meydana gəlmişdir.

Ayrı-ayrı insanların ümumi inkişaf səviyyəsi niyə aşağı olur? Ona görə ki, özünü dərk edə bilmir. "Mən nə üçün yaşayıram?" sualına cavab verə bilmir. Ömrü boş-boşuna keçirməyin zərərini, ailəsinə, elinə-obasına yük olduğunu da anlamır. Səlahəddin Xəlilovun "Mənəviyyat fəlsəfəsi" əsərində də fəlsəfəsi sosial mahiyyəti ilə dəyərləndirilən həmin cəhətlər diqqətə çatdırılmışdır. Müəllif həmin əsərin "İnsanın özü ilə görüşü: özünüdərk məsələsi" bölməsində yazır: Özünü dərk etmək, özünü tanımaq, həyatını öz meyarlarına uyğun şəkildə qurmaq heç də bütün insanlara qismət olmur. Neçə-neçə insan bu dünyada həyat sürüb, başqaları ilə ünsiyyətdə olub, başqalarını tanıyıb, onlarla iş birliyi qurub, amma bir dəfə də olsun özü ilə görüşmək, özünü tanımaq və öz seçimi ilə nə isə bir iş görmək şansı olmayıb. Daha doğrusu, bu şans bəlkə də olub, amma o, bu şansdan istifadə etmək cəsarətini özündə tapmayıb [4, s.69]. Çox dəyərli, həyati əhəmiyyəti ilə diqqəti cəlb edən, həyati müşahidələr əsasında gəlinən qənaətdir. O sətirləri oxuduqca bir az da heyrətlənməli, qəlbində baş qaldıran suallara da cavab verməli olursan. Axı necə olur ki, başqalarını yaxşı tanıya bilən, sağlam ünsiyyətdə olmağı bacaran insan özünü duya,

özünü dərk edə bilmir. Görünür, belə bir mövqedə insanın özü, özünün özəllikləri ilə sıx bağlıdır. Hər halda problemlə bağlı son qənaət belədir. Qadir Allahın sənə bəxş etdiyi ömrü ömür kimi yaşamalısan. Elə yaşamalısan ki, dəyər tutumuna malik sözün-söhbətinlə, əməllərinlə ailədə, iş yerində, cəmiyyətdə tanınasan, sevilləsən, necə deyərlər, öləndən sonra ölməyəsən. Bax budur, özünüdərkin heyrət və heyranlıq yaradan nəticəsi. Fərdin, cəmiyyətin özünüdərkinin əsas keyfiyyət göstəriciləri aşağıdakı istiqamətlərdə dəyərləndirilməlidir:

*– həyatın mənası, yaşam tərzi haqqında aydın təsəvvürə malik olmalı;*

*– həyatda öz dəsti-xətti, fəaliyyəti ilə tanınmağa çalışmalı;*

*– fəal həyat mövqeyi, şəxsi nümunəsi ilə diqqəti cəlb etməli;*

*– öz mövqeyini cəmiyyətin gündən-günə artan, yaxşı mənada müasirləşən mövqeyi tələbləri ilə uyğunlaşdırmalı;*

*– öz mövqeyini zəngin əxlaqi siması ilə nəzərə çatdırmağı bacarmalı, bu məqsədlə əlverişli imkanlardan, vasitə və yollardan istifadə etməli;*

*– şüurlu özünüdərkin nəticəsi kimi dəyərləndirilən saf əməlləri ilə tanınmalı, şəxsiyyət zənginliyi, şəxsiyyət bütövlüyü ilə ətraf aləmin, mənəvi mühitin ahəngdarlığına müsbət təsir göstərməlidir.*

Özünüdərk elə bir əxlaqi kateqoriyadır ki, bu istər-istəməz milli özünüdərk analayışını özünə çəkir. Maraq doğuran cəhətlərdən biri də budur ki, son vaxtlar bir sıra elmi-praktik konfranslarda, sosial şəbəkələrdə, elmi-metodik vəsaitlərdə “milli özünüdərk” anlayışına və bununla bağlı əsas komponentlərə, onların əsas mahiyyətinin izahına xüsusi diqqət yetirilir. Burada qeyd etmək yerinə düşərdi ki, ulu öndər Heydər Əliyevin “Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir! Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!” deyimi problemin əsas mahiyyətinin əzəl mübtədası kimi çox böyük əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, Ulu Öndərin bu deyimi, bu fikri problemlə əlaqədar elmi-praktik konfranslarda, sosial şəbəkələrdə, mətbuat səhifələrində, habelə elmi-metodik əsərlərdə öz fikirlərini şərh edənlərə də müsbət təsir göstərmiş, ideya istiqamətini müəyyənləşdirmişdir.

Səlahəddin Xəlilovun ölkənin baş mətbu orqanı olan “Azərbaycan” qəzetinin 29 dekabr 2001-ci il tarixli nömrəsində dərc edilən “Dünya azərbaycanlıları və azərbaycançılıq məfkurəsi” adlı geniş həcmli məqaləsi problemin bir sıra məsələlərini işıqlandırmaq baxımından mühüm əhəmiyyətə malikdir. Təqdirəlayiq haldır ki, müəllif həmin məqalənin elmi-fəlsəfi mahiyyətini daha anlaşıqlı, inandırıcı şəkildə nəzərə çatdırmaq üçün mövzu daxilində mövzu prinsipini əsas götürmüşdür. Həmin məqalənin “Tarix və etnogenez”, “Qloballaşma və milli müəyyənlik”, “Vahid mədəni-mənəvi məkan”, “Milli etik və milli-siyasi özünüdərk” bölməsini ilk baxışda mübahisəli görünən məsələlərin mahiyyət dolğunluğunun işıqlandırılmasına həsr etmişdir. Həmin bölmədə deyilir:

“Milli fəlsəfi fikir millətin özünüdərk mərhələsində üzə çıxır. Bu isə heç də bütün millətlərə nəsib olmur. Bu baxımdan “millət” anlayışını etnosdan fərqləndirən əlamətlərdən biri, məhz milli-etik təfəkkürlə milli-siyasi təfəkkürün vəhdətindən doğan milli fəlsəfi fikrin formalaşmasıdır. Bir sıra millətlərdə milli-fəlsəfi fikrin nəzəriyyə halında üzə çıxmaması heç də onun tamamilə yoxluğuna dəlalət etmir. Milli özünüdərk məqamları ədəbi-bədii fikir vasitəsilə də ifadə oluna bilər.

Azərbaycan xalqının milli inkişafında ədəbi-bədii fikrin rolu həmişə böyük olmuşdur. Obrazlı düşüncə bir təfəkkür tərzi kimi rasional elmi düşüncəni həmişə üstələmişdir. Xalqımızın milli fəlsəfi fikri də çox vaxt öz əksini elmi traktatlar və monoqrafiyalarda deyil, bədii ədəbiyyatda tapmışdır. Ona görə də fəlsəfi təfəkkürə gedən yol da əsasən ədəbiyyatdan keçmişdir [5].

Professorun məqaləsində yeni yanaşma tərzi, orijinallığı ilə diqqəti cəlb edən fikirləri çoxdur. Milli-etik təfəkkürlə milli-siyasi təfəkkürün vəhdətdə götürülməsi ideyası inandırıcıdır. Nümunə üçün istinad etdiyimiz sitatda “Milli özünüdərk məqamları ədəbi-bədii fikir vasitəsilə də istifadə oluna bilər” qənaətinin diqqətə çatdırılması da xüsusi maraq doğurur. Belə bir mövqe öz növbəsində, ədəbiyyat və incəsənətin (incəsənət növünün müasir təsnifatında ədəbiyyat da incəsənətin bir növü kimi nəzərə çatdırılır – V.X.) milli özünüdərkin inkişafındakı rolunu, əhəmiyyətini göstərir. Milli özünüdərk əxlaqi-mənəvi mahiy-

yətinə görə çox geniş və əhatəlidir. Təsadüfi deyildir ki, insanın özü, mənsub olduğu xalqı, onun sağlam mövqeyi, inkişafı ilə sıx bağlı olan bu cəhətə son vaxtlar mətbuat səhifələri ilə yanaşı, sosial şəbəkələrdə də xüsusi diqqət yetirilir. Fikirlər, mülahizələr müxtəlif istiqamətlərdə nəzərə çatdırılsa da, onları ortaq məxrəcə gətirdikdə mühüm, problem xarakterli məsələlər diqqəti çəkir. Bu baxımından Elçin İbrahimovun sosial şəbəkədə əks etdirilən fikirləri də maraqlıdır: Milli özünüdərk, ilk növbədə insanın öz tarixini, kökünü, milli mənsubiyyətini, Vətən tarixini bilmək və dərindən təhlil etmək bacarığını özündə ehtiva edir. Hər bir gənc, vətəndaş dərk etməlidir ki, hansı vətəni, milli xüsusiyyətləri təmsil edir, hansı özünəməxsus və səciyyəvi spesifik xüsusiyyətlərə sahibdir və bütün bunlar hansı əsaslara söykənir? Azərbaycanda milli özünüdərk prosesi böyük bir tarixi yol keçmişdir. Milli ideologiya, milli kimlik, özünüdərk prosesində həyatını qurban verən insanlar, məhz özlərindən sonrakı nəslin bu ülvi dəyərlərə sahib çıxmasını, onu qorumasını istəmişlər. Məhz onlar ağır şərtlər altında heç bir təhlükə və qorxudan çəkinməyərək millətin gələcəyini düşündükləri üçün bu mübarizəyə qoşulmuşdular. Bu missiyanın davam etdirilməsi isə gələcək nəslə bir vəzifə kimi ötürülmüşdür.

Fikrimizcə, bu çox doğru və problemləri əks etdirən, əhatəlilik səviyyəsində diqqətə çatdırılan qənaətdir. Maraqlısı odur ki, müəllif milli özünüdərkin əsas əlamətlərini mahiyyət dolğunluğu ilə şərh etməzdən əvvəl elə yerindəcə belə bir fikir işlədir: “Dövlətin zəngin tarixə malik özünəməxsus ənənə və dəyərlərinin yaşadılması mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Bunun üçün də başlıca olaraq gənclərə milli mənlik şüuru aşılanmalıdır. Sözügedən zümrəyə arzu olunan səviyyədə bunu aşılaya bilsək, qarşıya qoyulan məqsədlərə çatmaq çətin olmaz. Milli mənlik şüuru nədir? Bu ifadəni dərindən təhlil edəndə belə qənaət hasil olur ki, milli mənlik şüuru özünüdərk deməkdir”. Xüsusi sübuta ehtiyac yoxdur ki, müxtəlif yaşlı insanlarda özünüdərketmə kimi ali keyfiyyəti aşılamaq üçün əvvəlcə milli şüuru inkişaf etdirmək, necə deyərlər, qapılarını taybatay açmaq lazımdır. Elçin İbrahimov da belə bir mövqeyi əsas götürərək fikrini bir az da yaqinlik prizması ilə izah edir: “Milli şüur”, “milli özünüdərk” mənəvi dəyərləri özündə əks etdirən bir anlayışdır. “Özünüdərk” və “şüur” anlayışı nə qədər ümumidirsə, milli şüur islahatında həm ümumilik, həm də xüsusilik vardır. Milli şüur bir növ fərdi şüurla ümumi şüur arasında əlaqələndirmə funksiyasını yerinə yetirir. Çünki milli şüurda bir fərdin təmsil olunduğu konkret etnik, dini, mədəni xüsusiyyətlərlə yanaşı, ümumi mahiyyətli bəşəri dəyərlər də öz əksini tapa bilər. Yəni hər birimiz bir tərəfdən konkert bir millətin, dinin, mədəniyyətin nümayəndəsi olduğumuz halda, digər tərəfdən də ümumbəşəri dəyərin daşıyıcısıyıq.

Əhəmiyyətli cəhətlərdən biri də budur ki, hazırda nəzəri tədqiqatlarla məşğul olan pedaqoq alimlərimiz də milli özünüdərk keyfiyyətinin formalaşması üçün əvvəlcə milli şüurun oyanmasını, inkişaf etdirilməsini vacib sayırlar. Pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Cəbrayılov “Müasir təhsil: axtarışlar və perspektivlər” monoqrafiyasının “Milli mənlik şüurunun formalaşdırılması” fəslinin “Milli mənlik şüuru anlayışının mahiyyəti” adlanan 1-ci yarımfəslində yazır: “Müasir dövrdə cəmiyyətin inkişafı ilə bağlı təhsilin mühüm vəzifələrindən biri ondan ibarətdir ki, böyüməkdə olan nəsillər, məhz milli zəmində tərbiyələnsinlər. Yeniyetmələrdə milli mənlik şüurunun formalaşdırılması, özü də ilk növbədə tarix vasitəsilə, tarixi abidələrin köməyi ilə nəsillərin tərbiyə olunması indiki vəziyyətdə olduqca vacib məsələdir. Çünki şagirdlər tarixi öyrənərkən və ya tarixi abidələrlə tanış olarkən xalqımızın keçmişi və bu günü haqqında dəyərli məlumatlar əldə edir, xalqın milli psixologiyasını, xüsusiyyətlərini mənimsəyirlər. Beləliklə, məktəblilər “azərbaycanlı” anlayışının həqiqi mənada mahiyyətini başa düşür, özlərini bu xalqın övladı kimi dərk edirlər. Zəmanəmizin tələbi budur ki, özü-özünü tərbiyə edən nəsillər formalaşdırılsın. Elə nəsillər ki, onlar daha yüksək intellektual səviyyəyə açıq gözlə, parlaq fikirlərlə, bəşəri əməllərlə gedə bilsinlər” [6, s.154].

Haqlı deyimdir, problemlə bağlı bir sıra məsələləri əhatə edən və sahə mütəxəssislərinin diqqətinə çatdırılan deyimdir. Doğrudan da, indiki dövrdə tipindən və strukturundan asılı olmayaraq məktəb-təhsil sisteminin qarşısında müxtəlif yaş dövründə olan məktəblilərin milli zəmində hərtərəfli, ahəngdar inkişafı təxirəsalınmaz bir vəzifə

kimi qarşıya qoyulursa, demək, bu vəzifə ilə bağlı görülən işin əsas özəyi, hərəkətverici qüvvəsi də milli şüurun inkişaf etdirilməsi, formalaşdırılması olmalıdır. İstinad etdiyimiz sitatda milli şüurun və bunun əsasında formalaşan milli özünüdərkin inkişafına qüvvətli təsir göstərən vasitələrə xüsusi diqqət yetirilməsi də təqdirəlayiq sayılmalıdır. Xüsusi sübuta ehtiyac yoxdur ki, milli özünüdərkin əsasını milli şüur təşkil edir. Bu isə ana vətənin tarixi, dillərə dastan olan humanist ənənələri, tarixiləşən, tarixə dönən abidələri, müxtəlif janrlı sənət əsərləri vasitəsilə mümkün olur. Bütün bunlar müəyyən bir sistem halında ailədə, məktəbəqədər tərbiyə və təhsil ocaqlarında, məktəbdə, mədəni-maarif müəssisələrində, uşaq və yeniyetmələrin, müxtəlif nəsildən olan insanların milli şüur zəminində milli özünüdərk tərbiyəsinə qüvvətli təsir göstərir.

Araşdırmalar göstərir ki, "milli özünüdərk" anlayışının əsas mahiyyəti izah olunarkən, eyni zamanda azərbaycançılıq ideologiyası və başlıca keyfiyyəti üzərində dayanırlar. Təsadüfi deyildir ki, ulu öndər Heydər Əliyev 2001-ci ilin noyabr ayında Bakıda keçirilən dünya Azərbaycanlılarının 1-ci Qurultayındakı məşhur nitqində də problemin bu cəhətinə xüsusi diqqət yetirərək demişdir:

"Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra azərbaycançılıq ayrıca ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olumuşdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq – öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" [7].

Ulu öndər Heydər Əliyevin milli və bəşəri mahiyyəti ilə diqqəti cəlb edən həmin fikirləri öz növbəsində milli özünüdərkin özülləri kimi dəyərləndirilməli, eləcə də ümumtəhsil və ümumtərbiyə prosesində əməli fəaliyyət üçün əsas götürülməlidir. Yəni hər bir müəllim-tərbiyəçi ona nail olmalıdır ki, onların keyfiyyət göstəriciləri daha parlaq şəkildə nəzərə çarpsın: Birinci, milliyətcə azərbaycanlı olan hər bir kəs (uşaq, yeniyetməlik çağında, ahıl yaşda, ömrünün sonuna qədər) mənsub olduğu xalqla fəxr etməli, həyat və məişəti, ictimai mövqeyi ilə millətə, xalqa baş ucalığı gətirməlidir. İkinci, milli özünüdərkin formalaşmasında mühüm rol oynayan əxlaqi və multikultural dəyərlərə istinad etməli, bu yolla Azərbaycan – azərbaycançılıq adını daima yüksəklərə qaldırmalıdır. Üçüncüsü, milli özünüdərkin əsas vasitələrindən olan xalq yaradıcılığı nümunələrini, onların milli və bəşəri mahiyyətini, növ və janrlarını mükəmməl öyrənməli, onların tərbiyəsinə təsir qüvvəsini daima diqqətdə saxlamalı, humanist mövqelərini, təsir qüvvəsini təbliğ və tərənnüm etməlidir. Şübhəsiz ki, milli özünüdərkin həmin əlamətlərini özündə, davranış və fəaliyyətində əks etdirənlər bugünümüzə, gələcəyimizə layiq nəslin nümayəndələri kimi yetişir və formalaşırlar. Milli təəssübkeşlik hissi ilə çalışır, cəmiyyətdə öz mövqeyi, o cümlədən fəal həyat mövqeyi ilə tanınırlar.

**Nəticə.** Tədqiq etdiyimiz problemlə əlaqədar mövcud vəziyyət elmi-pedaqoji ədəbiyyatın təhlili aşağıdakı təklifləri irəli sürməyə əsas verir. İctimai mühit, habelə uşaq və yeniyetmələri, məktəbliləri əhatə edən pedaqoji proses elə qurulmalıdır ki, milliyyətcə azərbaycanlı olan hər kəs mənsub olduğu xalqla fəxr etsin, həyat və məişəti, fəal ictimai mövqeyi ilə millətə, xalqa baş ucalığı gətirsin. Milli özünüdərkin formalaşmasında mühüm rol oynayan əxlaqi və multikultural dəyərlər şagirdlərin (müxtəlif yaş dövründə olan məktəblilərin) həyat və məişətində daha aydın şəkildə nəzərə çarpmalıdır.

## İstifadə edilmiş ədəbiyyat

1. Göyüşov Z. Daxilə pəncərə (özünü dərketmə). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1978.
2. Azərbaycan Sovet Ensiklopediyası. Bakı, 1983, cild 7.
3. Göyüşov Z. Səadət düşüncəsi. Bakı, Azərnəşr, 1983.
4. Xəlilov S. Mənəviyyat fəlsəfəsi. Azərbaycan Universiteti nəşriyyatı, Bakı, 2007.
5. "Azərbaycan" qəzeti, 29 dekabr 2001.
6. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər (monoqrafiya). Bakı, "Mütərcim" nəşriyyatı, 2013.
7. "Azərbaycan müəllimi" qəzeti, 15-21 noyabr 2001.